# Konstitusiya Məhkəməsinin yaradılması Heydər Əliyev irsinin hüquqi zəminidir

*Müstəqil Azərbaycanın müasir dövlətçilik institutlarının bir çoxu yalnız hüquqi mexanizm kimi yox, eyni zamanda milli suverenliyin və ədalətə inamın simvolu kimi qəbul olunur. Bu sırada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi xüsusi yer tutur. Konstitusiya Məhkəməsi dövlət-mülkiyyət münasibətlərində hüququn və Konstitusiyanın ali qanunvericiliyinin təminatçısıdır. 1998-ci ilin 14 iyul tarixi hüquqi yaddaşımıza Azərbaycanın Konstitusiya ədalət mühakiməsinin başlanğıcı kimi daxil oldu. Müstəqilliyini bərpa etdikdən sonra demokratik idarəetməyə doğru addımlayan respublikamız məhz həmin gün Konstitusiya Məhkəməsinin əsasını qoydu.*

Bu məhkəmə, bir növ, dövlətin "vicdanı" kimi fəaliyyətə başladı - xalqın azadlıqlarını qorumaq, qanunların Əsas Qanunauyğunluğunu təmin etmək, vətəndaşın haqq səsinə cavab vermək missiyası ilə ali missiyanın icraçısına çevrildi. Qeyd etmək lazımdır ki, Konstitusiya Məhkəməsinin hüquqi əsası 1995-ci ildə qəbul edilən Konstitusiyada qoyulmuşdu. Bu, xalqın dövlətə verdiyi etimadın yazılı ifadəsi idi. Və Konstitusiyanın 130-cu maddəsi ilə Konstitusiya Məhkəməsinin səlahiyyətləri, strukturu, fəaliyyəti üçün hüquqi zəmin formalaşdırıldı.

Konstitusiya Məhkəməsi hüquqi dövlət qurmaq iradəsinin bəhrəsidir. Onun ədalət yükü ağır və məsuliyyətlidir. Müstəqillik prinsipinə əsaslanan bu orqan təşkilati və maliyyə baxımından tam azaddır. O, nə qanunverici, nə icra, nə də digər məhkəmə hakimiyyətlərinin təsiri altındadır. Heç bir fiziki və ya hüquqi şəxs Konstitusiya Məhkəməsinin müstəqil qərarına müdaxilə edə bilməz. Məhz bu səbəbdən onun qərarları hüquqi sistemin ən ali və dəyişməz hökmləri kimi qəbul edilir. Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir. Hər biri Prezidentin təqdimatı ilə Milli Məclis tərəfindən təyin olunur. Məhkəmə yalnız 7 hakim təyin olunduqdan sonra fəaliyyətə başlaya bilər. Hər bir hakim 15 il müddətinə bu şərəfli və məsuliyyətli vəzifəni icra edir. Bu isə sabitlik və davamlılıq prinsipinin hüquq müstəvisində əksidir. Onların səlahiyyətləri bitdikdə isə təkrar təyinat hüququnun olmaması bu vəzifənin nə qədər prinsipial olduğunu göstərir. Hakimiyyət bölgüsü prinsipinə uyğun olaraq, məhkəmənin sədri və sədr müavini Prezident tərəfindən təyin edilir. Bu, həm də hakimiyyət qolları arasında balans və qarşılıqlı nəzarətin əyani təzahürüdür. Azərbaycanın Konstitusiya Məhkəməsi qanunların yox, həm də mənəvi prinsiplərin keşiyində dayanır. O, Konstitusiyanın aliliyini qoruyaraq, cəmiyyətlə dövlət arasında ədalətli körpü rolunu oynayır. Əgər bu gün Azərbaycan vətəndaşı öz hüquqlarını qorumaq üçün Konstitusiya Məhkəməsinə müraciət edirsə və oradan ədalət gözləyirsə, bu, həmin orqanın illərlə qazandığı etimadın nəticəsidir.

Xüsusi vurğulanmalıdır ki, Konstitusiya Məhkəməsi Ulu Öndər Heydər Əliyevin dərin hüquq düşüncəsinin, siyasi uzaqgörənliyinin və milli iradəyə dayanan idarəetmə fəlsəfəsinin bəhrəsidir. 1990-cı illərin ağır və çətin günlərində Azərbaycan dövləti yenidən dirçəlməyə, hüquqi dövlət qurmağa, insan hüquqlarını ali dəyər kimi qəbul etməyə başlayanda bu yolun bələdçisi məhz Ulu Öndər Heydər Əliyev oldu. 1995-ci ildə qəbul edilən Konstitusiya Azərbaycanın hüquqi xəritəsini cızdı. Bu sənəd eyni zamanda, məhkəmə hakimiyyətinə yeni nəfəs, yeni mahiyyət verdi. Əsas Qanunun ən mühüm yeniliklərindən biri məhkəmə hakimiyyətinin müstəqilliyinin konstitusion səviyyədə təsbit olunması idi. Bu, demokratik hüquqi dövlətin qurulması yolunda dönüş nöqtəsi oldu. Konstitusiyanın qəbulundan sonra məhkəmə sisteminin təşkili real həyatımıza toxunan, hər bir vətəndaşın hüququnun müdafiəsinə yönələn çoxpilləli məhkəmə modelinin formalaşması ilə nəticələndi. Artıq Azərbaycan vətəndaşı məhkəmədə ədalət tapacağına inanırdı. Bu inamın arxasında isə sistemli qanunvericilik islahatları, məhkəmə strukturunun təkmilləşdirilməsi və ən əsası siyasi iradə dayanırdı.



Konstitusiyada təsbit olunmuş hakimiyyət bölgüsü prinsipi dövlətçilik təfəkkürümüzün ayrılmaz parçasıdır. Bu prinsipə əsasən, məhkəmə hakimiyyəti qanunverici və icraedici hakimiyyətdən tam ayrıldı və bu hüquqi təhlükəsizlik üçün yeni dövrün başlanğıcı oldu. Artıq məhkəmə qərarları yalnız hüquqla ölçülür, başqa təsirlərə məruz qalmırdı. Bu hüquqi intibahın ən mühüm mərhələlərindən biri isə 1998-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin yaradılması oldu. 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" qanunun qəbul edilməsi, 1998-ci il iyulun 14-də hakimlərin təyin olunması və iyulun 18-də Ulu Öndər Heydər Əliyevin imzaladığı Fərmanla Məhkəmənin rəsmi fəaliyyətə başlaması Azərbaycan dövlətinin hüquqi müstəqilliyə atdığı ən mühüm addımlardan biri oldu. Bu, Konstitusiyanın aliliyini qoruyan, qanunların qanunauyğunluğunu yoxlayan, vətəndaşın son sığınacağı olan ali ədalət məbədi oldu. Bu orqanın müstəqil fəaliyyəti, hakimlərin hüquqi statusunun təminatı, sosial müdafiəsi və peşə təminatları - bütün bu vacib məsələlər birbaşa Heydər Əliyev şəxsiyyəti ilə bağlıdır.

Qeyd edək ki, Konstitusiya Məhkəməsi təkcə ali konstitusiya nəzarət orqanı deyil, həm də bütün məhkəmə sisteminin hüquqi koordinasiya mərkəzidir. Bu ali məhkəmə orqanı hüququn tətbiqi prosesində digər məhkəmələrlə əl-ələ verərək, vahid hüquqi məkanın formalaşmasına xüsusi diqqət yetirir. Bu əməkdaşlıq cəmiyyətin ədalətə olan inamının qorunması, məhkəmələr arasında uyğunsuzluqların aradan qaldırılması və qanunun ali hökmünün hər bir məhkəmə zalında eyni səs tonunda səslənməsi deməkdir. Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilən qərarlar arasında xüsusi bir kateqoriya var ki, o, bütün hüquq sisteminin ritmini müəyyənləşdirir - bu, məhz digər məhkəmələrin müraciətləri əsasında verilən hüquqi şərhlərdir. Unutmaq olmaz ki, hüquqi sabitlik hər bir dövlətin dirəklərindən biridir. Konstitusiya Məhkəməsinin qərarlarında formalaşan hüquqi mövqelərin digər məhkəmələr tərəfindən birmənalı şəkildə tətbiqi hüquq sistemində proqnozların ardıcıllığının əsas təminatçısıdır. Bu isə birbaşa olaraq vətəndaşın ədalət gözləntilərini qarşılayır, məhkəmə sisteminə olan inamı gücləndirir.

Bugünkü Azərbaycanın hüquq sistemi Konstitusiya Məhkəməsinin bu birləşdirici rolunu dərk edir və qəbul edir. Hər bir hüquqşünas, hər bir hakim bu qərarların arxasında yalnız hüquqi mətnləri deyil, həm də dövlətçiliyin dərin məsuliyyətini və cəmiyyətə verilmiş vədi hiss edir.

Konstitusiya Məhkəməsi yarandığı gündən indiyə qədər 599 qərar və 181 qərardad qəbul edib. Bu qərar və qərardadlarda formalaşdırılmış hüquqi mövqelər ilk növbədə Konstitusiyanın aliliyinin təmin olunmasına, eyni zamanda əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir. Konstitusiya Məhkəməsinin əsas səlahiyyətlərindən bəhs edərkən fərdi şikayətləri, mahiyyət və təyinatına əsasən isə konstitusiya şikayətlərini xüsusilə qeyd etmək lazımdır. 2002-ci ildə keçirilmiş konstitusiya islahatlarından və 2004-cü ildə "Konstitusiya Məhkəməsi haqqında" yeni Qanunun qüvvəyə minməsindən sonra Konstitusiya Məhkəməsində konstitusiya şikayətləri institutu tətbiq edilməyə başladı. Qanunvericiliyə edilmiş bu dəyişikliklər öz növbəsində Konstitusiya Məhkəməsinin fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasına səbəb olmuş, insan hüquq və azadlıqlarının müdafiəsi üçün əhəmiyyətli vasitənin əldə edilməsi baxımından mühüm zəmin yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi də məhz bu cür tarixi dönüş nöqtələrindən biridir. Bu, bir milli hüquqi oyanış çağırışı, dövlətçilik ruhuna sayğı və gələcək nəsillərə hüquq əsasında formalaşan mirasın ötürülməsi anlamına gəlir. Müstəqilliyini qanı və canı bahasına qazanmış bir xalq üçün konstitusiya və suverenlik azadlıq fəlsəfəsinin, milli iradənin və dövlət müstəqilliyinin əsas dayaqlarıdır. "Konstitusiya və Suverenlik İli" xalqın iradəsi, qanun qarşısında bərabərlik arzusu, ədalətə olan inam və azad yaşamaq haqqının təntənəsidir.

**Nurlan ABDALOV,**
**"Respublika".**